Funded by the European Union

Aİ-nin Sağlamlığın Qorunmasına dair Təşəbbüsü



İcra müddəti: 01.01.2020 - 31.12.2024

ŞT ölkələri:

Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova, Ukrayna

Aİ-nin maliyyə yardımı: € 6 000 000

Ümumi büdcə: € 6 000 000

İcraçı təşkilat(lar):

European Centre for Disease Prevention and Control

Layihənin təsviri:

Aİ-nin Sağlamlığın Qorunmasına dair Təşəbbüsü yoluxucu xəstəliklərlə bağlı problemlərin qarşısının alınması və nəzarəti üçün regional səriştəli işçi qüvvəsinin formalaşdırılması, eləcə də sağlamlıq sahəsində təhdidlər ilə mübarizə üçün regional əməkdaşlığı gücləndirmək məqsədi daşıyır.

Gözlənilən nəticələr:

- Sahə Epidemiologiya Təlim Proqramı (FETP) kimi MediPIET-in davam etdirilməsi və gələcək inkişafı.
- Yoluxucu xəstəliklərlə bağlı təhdidlərin effektiv qiymətləndirilməsi, aşkar edilməsi, onlarla mübarizə və qarşısının alınması üçün daha güclü sistemlər və bacarıqlar tələb olunur.
- ECDC-nin işinə tərəfdaş ölkələrin mütərəqqi inteqrasiyası.
- Hazırlıq, mübarizə tədbirləri və fövqəladə hallar üzrə əməliyyatlarda regional əməkdaşlığın genişləndirilməsi.

Fəaliyyətlər müxtəlif iş paketləri ətrafında təşkil edilir.

İşçi qüvvəsi yönümlü potensialın yaradılması:
- Təlim resurslarının və ehtiyaclarının təhlili.
- Ölkələrdə sahə epidemiologiyası sahəsində potensialın dəstəklənməsi üçün ardıcıl iki qrup tələbələrin hazırlanması.
- Hesabatlılığı təşviq etmək və təhsilin keyfiyyətini saxlamaqla MediPIET şəbəkəsinin gücləndirilməsi;
- Mövcud ECDC onlayn platformalarından istifadə etməklə MediPIET öyrənmə modullarının rəqəmsallaşdırılması.
- Tərəfdaş ölkələrdə təlim kaskad effekti yaratmaqla davamlılığın artırılması.

Epidemioloji məlumatlar, risklərin qiymətləndirilməsi, hazırlıq və mübarizə tədbirləri:
- ECDC prosedurları və metodologiyalarına uyğun olaraq tərəfdaş ölkələrin potensialının qiymətləndirilməsinin aparılması.
- Tərəfdaş ölkələrdə epidemioloji vəziyyətin araşdırılması.
- Tərəfdaş ölkələrin ekspertlərinə risklərin hərtərəfli qiymətləndirməsini aparmaq imkanının yaradılması.
- İctimai səhiyyə ilə bağlı fövqəladə hallarla mübarizə üçün hazırlıq və uyğunluğun təkmilləşdirilməsi.